**Sahibkarlığın inkişafına dəstək davam edir**

«2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı» çərçivəsində həyata keçəcək Tədbirlər Planında Bakıətrafı rayonların elektrik, su təchizatı və kanalizasiya, yol təsərrüfatı və nəqliyyat sahəsi, abadlıq və yaşıllaşdırma, ekologiya, kənd təsərrüfatının infrastruktur təminatı, sahibkarlığın inkişafına dəstək və digər sahələr yer alıb. Dövlət Proqramının yüksək səviyyədə həyata keçirilməsi üçün Bakı şəhəri və onun qəsəbələrinin inkişafının sürətləndirilməsi, əhaliyə göstərilən kommunal xidmətlərin həcminin və keyfiyyətinin yaxşılaşdırılması, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi istiqamətində müvafiq dövlət qurumlarına tapşırıqlar verilib...

Dövlət Proqramına əsasən, sahibkarlığın inkişafına dəstək istiqamətində İqtisadi İnkişaf Nazirliyinin də qarşısında bir sıra vəzifələr qoyulmuşdur. Bu vəzifələr arasında Bakı şəhəri və ətraf qəsəbələrin inkişafı üçün investisiyaların cəlb edilməsi və ixracatın dəstəklənməsi məqsədilə müxtəlif biznes tədbirlərinin təşkil olunması, kiçik və orta sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslərin maarifləndirilməsi, treninqlərin keçirilməsi və güzəştli kreditlərin verilməsi xüsusi yer tutur.

İqtisadi İnkişaf Nazirliyindən verilən məlumata görə, qarşıya qoyulmuş vəzifələrin həlli mərhələli şəkildə həyata keçirilir. Sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən mütəmadi olaraq regionlarda və Bakı qəsəbələrində sahibkarlığın inkişafına dövlət dəstəyinə dair tədbirlər keçirilir. Həmin tədbirlərdə sahibkarlara güzəştli kreditlər verilir, maarifləndirici treninqlər təşkil olunur, nümunəvi investisiya layihələrinin təqdimatı keçirilir, yerli icra hakimiyyəti orqanlarının nümayəndələri və sahibkarlarla mövcud iqtisadi potensialdan daha səmərəli istifadə edilməsi məqsədilə müzakirələr aparılır, tədbir keçirilmiş şəhər və rayonlar üzrə investisiya təkliflərinin qəbulu üçün kütləvi informasiya vasitələrində lokal xarakterli elanlar verilir.

Nazirlikdən bildirilir ki, bu ilin əvvəlindən bəri Fondun vəsaitləri hesabına sahibkarlıq subyektləri üzrə 2003 investisiya layihəsinin maliyyələşdirilməsinə 164,3 milyon manatdan çox güzəştli kredit ayrılmışdır və həmin kreditlər hesabına 7400-ə yaxın yeni iş yerinin yaradılması nəzərdə tutulur.

2011-ci ildə və 2012-ci ilin ötən dövrü ərzində Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına Bakıətrafı qəsəbələrdə 362 investisiya layihəsinin, o cümlədən yeni texnologiyaların tətbiqinə əsaslanan 37 layihənin maliyyələşdirilməsinə 57 milyon manatdan çox güzəştli kredit verilmişdir. Bu layihələrdən 18-i artıq başa çatdırılmış, beş müasir istixana, beş quşçuluq təsərrüfatı, dörd çörək zavodu, bir ərzaq məhsulları istehsalı müəssisəsi, bir ət emalı müəssisəsi, bir mebel fabriki və bir tikinti materialları istehsalı müəssisəsi istifadəyə verilmişdir.

Qeyd edək ki, sahibkarlığın inkişafına dəstək məqsədilə Bakıətrafı qəsəbələrdə tədbirlər davam edir.

AYTƏN